# Muzeylərimizi böyük işlər gözləyir

*Ölkəmizdə muzey işi, muzeyçilik o qədər də böyük tarixə malik deyildir. Azərbaycanda XIX əsrin II yarısında xalqın həyatında sürətlə cərəyan edən ictimai-siyasi və mədəni proseslər muzey işinin təşkilinə də təkan vermişdir. Cəlil Məmmədquluzadə dərs dediyi Nehrəm kənd məktəbində yaratmış olduğu muzey bəlkə də Azərbaycanda ilk muzeylərdən sayıla bilər.*

*Bütün çoxsahəli fəaliyyətində xalqın rifahına, maariflənməsinə, ictimai fikrinin inkişafına xidmət göstərmiş Azərbaycan ədəbiyyatının klassiki, maarifçi və ictimai xadimi, Şərqdə ilk satira jurnalının - «Molla Nəsrəddin»in yaradıcısı (1906, 7 aprel, Tiflis) və 25 illik bir dövrdə redaktoru olmuş Cəlil Məmmədquluzadə məşğul olduğu digər sahələr kimi muzey işinin də xalqın həyatındakı əhəmiyyətini yaxşı bildiyi üçün bu işin təşkilində də yaxından iştirak etmişdir.*

*Azərbaycanda sonralar bir neçə muzey yaradılmışdı. Bununla belə keçən əsrin əvvəllərində Azərbaycanda bəlkə də barmaqla sayılacaq qədər az muzey fəaliyyət göstərirdi.*

XX əsrin 70-ci illərindən başlayaraq ölkə rəhbəri H.Əliyevin təşəbbüsü və bu sahədə göstərdiyi əməli işlər sayəsində Azərbaycanda muzey işi və muzeyçilik inkişaf etmiş və regionlar da daxil olmaqla muzey şəbəkəsi yaranmışdır.

Xalqımızın milli-mənəvi sərvətlərinin toplanması, mühafizəsi, tədqiq və təbliğ olunmasında muzeylərin rolunu yüksək dəyərləndirən H.Əliyevin sərəncamı ilə rayon və kəndlərdə tarix-diyarşünaslıq muzeyləri, görkəmli elm, mədəniyyət və ədəbiyyat xadimlərinin xatirə muzeyləri və başqa sahə muzeylərinin yaradılması işi vüsət almışdır.

Bu gün Bakı şəhərində fəaliyyət göstərən Cəlil Məmmədquluzadənin xatirə muzeyi də həmin illərin yadigarıdır.

H.Əliyevin şəxsi təşəbbüsü ilə qəbul edilmiş «Azərbaycanın görkəmli ədəbiyyat və incəsənət xadimlərinin xatirə muzeylərinin yaradılması haqqında» 1978-ci il 16 iyul tarixli qərarına müvafiq olaraq Bakı şəhərində, vaxtı ilə Cəlil Məmmədquluzadənin yaşadığı (1922-1932) və fəaliyyət göstərdiyi, həm də mətbuat tariximizdə mühüm hadisə olan «Molla Nəsrəddin» jurnalının redaksiyasının yerləşdiyi bir ünvanda: S.Tağızadə küç.-56 (tarixi adı- Köhnə Poçt küçəsi 64) ədibin ev-muzeyi fəaliyyətə başlamışdır.

«Cəlil Məmmədquluzadənin 125 illik yubileyinin keçirilməsi haqqında» Prezident H.Əliyevin imzaladığı sərəncama müvafiq olaraq 1994-cü ildə ədibin Azərbaycanda qeyd edilən təntənəli yubiley günlərində Cəlil Məmmədquluzadənin ev-muzeyinin ilk ekspozisiyasının açılışı (28 dekabr, 1994) olmuşdur. Möhtərəm Prezident H.Əliyev Dövlət və Hökumət nümayəndələri ilə birlikdə ekspozisiyanın açılışında iştirak etmiş, fəxri qonaqlar üçün kitabın ilk səhifəsində bu sözləri yazmışdır:

«Bu gün Azərbaycanın həyatında böyük hadisə baş verir. Azərbaycan xalqının böyük yazıçısı, maarifçisi, ictimai xadimi Cəlil Məmmədquluzadənin ev-muzeyi açılır. Bakı şəhərində yeni mədəniyyət ocağı, Mirzə Cəlil ocağı fəaliyyətə başlayır. Bu, Cəlil Məmmədquluzadənin yaradıcılığına, onun ədəbi, mədəni irsinə, xalqımızın tarixində əvəzsiz xidmətlərinə verilən yüksək qiymətin rəmzidir. Şübhə yoxdur ki, muzey Mirzə Cəlil dühasının geniş təbliğinə faydalı xidmət edəcəkdir. Xalqımızın mənəvi saflaşmaq yolunda, müstəqillik yolunda mübarizəsinə kömək edəcəkdir».

«Molla Nəsrəddin» jurnalının I sayının çapdan çıxmasının (7 aprel 1906, Tiflis) 100 illik yubileyi ərəfəsində Cəlil Məmmədquluzadənin ev-muzeyində növbəti dəfə Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsi tərəfindən başlamış (10 oktyabr 2005) əsaslı təmir və bərpa işləri 2006-cı ilin mart ayında tamamlandıqdan sonra Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Muzey Sərvətlərinin və Xatirə Əşyalarının Elmi Bərpa mərkəzinin bərpaçı-mütəxəssisləri tərəfindən muzeydə mühafizə olunan və bərpaya ehtiyacı






olan bütün memorial əşyalar yüksək səviyyədə bərpa olunmuşlar. Daha sonra Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin tərtibatçı rəssamları mövcud mövzu ekspozisiya planına müvafiq olaraq muzeyin yeni ekspozisiyasının bədii tərtibi ilə məşğul olmağa başlamışlar. Hazırda ekspozisiyada bədii tərtibat işləri yekunlaşır, muzey kütləvi baxış üçün açılışa hazırlanır.

Muzeyin ekspozisiyası beş otaqda yerləşir. Otaqlar tarixi-memorial funksiyası tərtibat zamanı nəzərə alınmış, ekspozisiya otaqları ədibin yaşadığı illərdə olduğu kimi tərtib edilmişdir. Memoriallıq etibarı ilə qonaq otağı, yataq otağı, ədibə məxsus iş otağı, mebel dəsti və digər ev əşyaları bu haqda dolğun təəssürat yaradır.

I otağın nisbətən daha geniş olması və ekspozisiya yaratmaq imkanları baxımından üstünlükləri nəzərə alınaraq burada ədibin həyat və yaradıcılığının I mərhələsi – uşaqlığı, gənclik və təhsil illəri, müəllimlik fəaliyyəti, ictimai fəaliyyəti, ədəbi yaradıcılığının ilk dövrü və jurnalistika fəaliyyətinə dair müxtəlif tarixi sənəd və fotolar nümayiş olunur.

II otaq memoriallıq baxımından qonaq otağıdır. Burada qonaq otağına məxsus ev əşyaları yerləşdirilmiş, divarlarda ədibin hekayə yaradıcılığını əks etdirən materiallar, Mirzə Cəlil ocağının fəxri qonaqları olmuş görkəmli şəxsiyyətlər, ədibin ömür-gün yoldaşı, Azərbaycan xalqının görkəmli ziyalı qadınlarından biri, Qarabağ hakimi İbrahim xanın nəslindən olan Həmidə xanım və onun atası Əhməd bəy Cavanşir haqqında materiallar yerləşdirilmişdir.

III otaqda ədibin ailəsinə məxsus paltar şkafı, tumba, torşer, bəzək stolu və s. yerləşdirilmişdir. Tarixi sənəd və fotoların dili ilə ədibin ailəsi haqqında məlumatı bu otaqda almaq olar.

Cəlil Məmmədquluzadənin ailəsi çox geniş anlayışdır. Ədibin ailəsində təkcə onun öz uşaqları böyüyüb tərbiyə almamışdır. Həmidə və Cəlil Məmmədquluzadələrin ailəsində ədibin qızı Münəvvərdən başqa Faiq əfəndinin (Ö.F.Nemanzadə) bacısı oğlu Əziz Şərif, Məmməd Tağı Sidqinin övladları Məmmədəli və Məmmədhəsən Səfərovlar himayəyə alınmış və qayğı göstərilmişdir.

Cəlil Məmmədquluzadənin nəsr və dramaturgiya yaradıcılığına, «Molla Nəsrəddin» jurnalının nəşrinin Tiflis və Təbriz dövrünə aid eksponatlar dördüncü otaqda nümayiş olunur. Bu otaq ədibə hələ sağlığında şöhrət gətirmiş dram əsərləri «Ölülər», «Dəli yığıncağı», «Anamın kitabı»nın səhnə tarixi, Cəlil Məmmədquluzadənin təşəbbüsü və redaktorluğu ilə 25 il müddətində fasilələrlə çap olunmuş (7 aprel, 1906-1931) «Molla Nəsrəddin» jurnalının müxtəlif illərdəki nəşrlərindən nümunələr, ədibin «əməl dostları» - mollanəsrəddinçilər haqqında materiallarla zəngindir (Ö.F.Nemanzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, Ə.Qəmküsar, M.Sidqi, Ə.Nəzmi, S.Mümtaz, M.Şəbüstəri, Ə.Əzimzadə, O.Smerlinq, J.Rotter, S.Səlmasi və digərləri).

Beşinci-sonuncu otaqda tarixən Şərqdə ilk satirik «Molla Nəsrəddin» jurnalının redaksiyası olmuşdur. Memorial səciyyəli bu otaqda 1922-ci ildə, Cəlil Məmmədquluzadə ailəsi ilə birlikdə Cənubi Azərbaycandan Bakıya döndükdən sonrakı illərdə «Molla Nəsrəddin» jurnalının nəşri tarixini digər şəxsi əşyalar, «Molla Nəsrəddin» jurnalının orjinalları, tarixi sənədlərin dili ilə jurnalın 1922-1932-ci illərdəki nəşri, Cəlil Məmmədquluzadənin Sovet dönəmindəki həyatı əks olunur. Divarda iri planda verilmiş «Ədibin dünya şöhrəti»

adlanan xəritədə ədibin əsərlərinin yayılma şəbəkəsi göstərilir.

Cəlil Məmmədquluzadənin ev-muzeyi 2006-cı ildə bütün fəaliyyətini «Molla Nəsrəddin» jurnalının 100 illik yubileyinə yönəltmişdir - fondun elmi kompleksləşdirilməsi zamanı il ərzində əməkdaşlarının ciddi səyi nəticəsində muzey fondları 114 ədəd «Molla Nəsrəddin» jurnalı fərdi şəxslərdən satın alınaraq daha da zənginləşdirilmişdir. Həmçinin muzey fondlarına «Molla Nəsrəddin»in təsiri ilə həmin illərdə nəşr edilən digər satirik jurnallar; ədibin əsərlərinin yeni nəşrləri; «Molla Nəsrəddin» jurnalının transleterasiya olunmuş (1909-1911, II cild) Akademik nəşrləri və Təbriz nəşrinin (1921-1922, 8 nömrə) transletereyası olunmuş Akademik nəşri də əldə olunmuşdur.

1906-1907-ci illərin zaman kəsiyində, «Molla Nəsrəddin» jurnalı ilə eyni dövrdə Əlibəy Hüseynzadənin redaktorluğu ilə nəşrə başlamış «Feyuzat» elmi-populyar qəzetinin transleterasiya olunmuş yeni nəşri də muzey fondlarına qiymətli eksponat kimi daxil edilmişdir.

Muzey yeni səyyar sərgilərin hazırlanması və onların nümayişi sahəsində də öz işini hesabına hazırlanmış «Molla Nəsrəddin – 100» səyyar sərgisini tamaşaçılar xüsusi maraqla qarşılamışlar. «Molla Nəsrəddin» jurnalının və bütövlükdə Azərbaycan mətbuat tarixinin önəmli səhifələrini özündə əks etdirən sərginin hazırlanmasında bu jurnalın muzey fondlarında mühafizə olunan nömrələrindən və digər tarixi materiallardan istifadə olunmuşdur. Sərgi ilk yubileyinə həsr olunmuş təntənəli gecənin iştirakçılarına baxış üçün təqdim olunmuşdur. Daha sonra həmin sərgi muzeyin əsasən təhsil müəssisələrində təşkil etdikləri kütləvi tədbirlər zamanı nümayiş olunmuşdur: 199, 112, 289, 179 saylı orta məktəblərdə; AzərSUN Holdinq şirkətində; Müəllimləri Təkmilləşdirmə İnstitutunda və s.



Azərbaycan xalqının böyük oğlu H.Əliyev siyasətinin ardıcıl davamçısı Respublika Prezidenti İlham Əliyevin şəxsi təşəbbüsü və qayğısı nəticəsində bu gün də muzeylərimiz diqqət mərkəzinə çəkilmişdir.



Prezident İ.Əliyevin bir neçə muzeydə şəxsən olması (18 mart 2006), «Molla Nəsrəddin» jurnalının 100 illik yubileyinin keçirilməsi haqqında» 23 yanvar 2006-cı il tarixli və «Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında» 6 mart 2007-ci il tarixli sərəncamları Respublika muzeylərinə dövlət qayğısının nümunəsidir.

Qarşıda ümumiyyətlə muzeylərimizdə böyük işlər görülməsi gözlənilir. Bu işlərin startı H.Əliyevin layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyevin «Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında» 6 mart 2007-ci il tarixli sərəncamı ilə verilmişdir.

Bu sərəncam Cəlil Məmmədquluzadənin ev-muzeyinin əməkdaşlarını da gördükləri şərəfli işdə daha ciddi, daha məsuliyyətli olmağa sövq edir.

**Pərixanım MAHMUDOVA,**
**Cəlil Məmmədquluzadənin ev-muzeyinin direktoru**